# EL YCYN NƏƢMƏ

**Carens**

O ki, uçsuz buçaqsьz... O ki, hydudsuz geniş...
Su basarlar, steplər, saƣa, sola gərilmiş,
Yfyqdən-yfyqlərə uzanmьş qarlь dyzlər
Bulutlar kəlgəsində kəntlər dərdsiz, baxtəvər.
Ta şimaldan çənuba, şərqdən ƣərbə catьnça,
Jerin şimal parcasь bir ɵlkəjdi qos-qoça
Hakimdi mystəbid car, o məhtəşəm ɵlkədə,
Həm o gɵzəl ɵlkənin elləri təhlykədə,
Ellər təhkimdi... Ellər topraqsьz calьşьrdь,
Mal kibi bir ƣajəsiz həjata alьşьrdь.
O səfil, aç elləri, o jazьq muziqləri,
Daim minib syryrdy ɵlkə cinovnikləri.
Muziqin gɵzy qorqmuş, qəlbi sakit vururdu.
Ɵlkənin topraqlarь syrylməmiş dururdu.
Topraqsьzdь kəntlilər, mylkədarlar amansьz.
Aƣanьn topraƣьnь beçərən kəntli çansьz.
O tarlasьz səfil xalq, kirimiş dəjylyrdy.
Açьndan daş jejirdi, yzylyrdy, ɵlyrdy.
Dərdindən araq icir, tynlyk mejxanələrdə
Jatьrdь ki: «ojanьb jeməsin daha bir də».
Dya edib dururdu geçə-gyndyz tanrьja,
Jetim, bojnu bykyly baqьrdь juqarьja.
Inanьrdь: juqardan bir gyn ьşьq doƣaçaq.
Ɵlkəni culƣalajan qaranlьƣь boƣaçaq.
Kəntli topraqlanaçaq, bytyn xalq o zamandan,
Qurtulaçaq dəhşətlər dolu qara zindandan.
Nə dyadan sevindi o zavallь xalq, nə də
Dərdinə carə buldu dumanlь mejxanədə.
Ɵlkə bir qan dərjasь, ehtijaçlar tykənməz,
Qan savuran qəhətlik ɵz mevqe'indən ənməz.
Dolaşьrdь ɵlkənin sьslь yfyqlərində,
Solƣun tarlalarьnda, jetim qoruqlarьnda.
Illərçə o dijarda gynəş doƣdu qanalmьş,
Batarkən ɵzy kibi gɵrdy ellər bonalmьş.
Gynəş qьlьnçla cьqmьş qanlь gɵz kibi, sьqdь.
Jaƣan qatь qaranlьq, jaƣmajan bir ьşьqdь.
Ɵlkə bir qan dərjasь, nəƣmələr də ƣəm səsi,
Bir sijah ɵlym səsi, bir uzun matəm səsi,
Sənmyş iqtidar, ə'çaz;
Fəqət coqdan bir muziq
Cьqdь bir şej jaratdь sankь joqdan bir muziq.
Ətrafьna topladь jalavaç rənçbərləri,
Ajaq jalьn, baş acьq, jurdsuz dərbədərləri.
Məqsədi qurtuluşdu... bu açlar kəməsilə,
Hajqьrdь, vəlvələlər qopardь gur səsilə,

«Ej joqsullar, topraqsьz insanlar bəri gəlin
Jetər qaldьnьz geri, bir az ilərі gəlin.
Bu caj aqьntьsilə barabar toplaşьnьz
Ej minlər, ej jyzminlər, miljonlar toplaşьnьz
Toplaşьnьz bu gyndən sizin aç ordunuzu,
O səfil ordunuzu, o məhtaç ordunuzu.
Carьn şəhrinə kibi aparaçaƣam gəlin,
Mosqvanь jerindən qoparaçaƣam gəlin.
Orda siz dyrly-dyrly keflər çəkəçəksiniz,
Nə qədər istəsəniz araq icəçəksiniz.
Məskəniniz olaçaq carьn parlaq binasь,
Car təxtindən gələçək məzlumlarьn sədasь.
Toplaşdьlar, gəldilər jyzlər, minlər, miljonlar,
Malь, mylky, tarlasь, çiftligi olmajanlar.
Onlar qoşub bir ordu halьnda toplaşdьlar.
Əngin ummanlar kibi dalƣalanьb daşdьlar.
Secilməzdi bu ordu bir sel uƣultusundan,
Meşə hajqьrtьsьndan, tufan gurultusundan.
O minlər ordusundan ellər qorqdu, çəkindi,
O minlər ordusunun kini başqa bir kindi.
Ordunun nəƣməsindən məsrur səslər qopurdu,
Qaranlьq meşə kibi tərpəndi jola ordu.
Haman cajьn əksinə olaraq dalƣa verdi,
Sel kibi ɵnyndəki çətinligi dəvirdi.
Bɵjyk imarətlərin jellər əsdi jerində,
Sahib kibi oturdu topraƣьn yzərində.
Bir necə gyn duruldu gynəşin qanlь gɵzy,
Al şəfəqlər byrydy nəş'ə dolu gyndyzy.
Uzaq-uzaq steplər qoşaraq dalƣalandь,
Muziq qoşdu tarlaja, topraƣa aƣalandь.
Belə oldu...
Nə jazьq... birdən carьn ordusu
Ucdu, gəldi juqarьdan sankь bir caƣlajan su.
Iki ordu vuruşdu, bɵjyk mə'rəkə qopdu.
Muziqlərin ymudu su kibi jerə hopdu,
Bir qədər carpьşdьlar joqsullar tərəfindən,
Alьnan şəhərləri geri aldьlar həmən.
Qajtardьlar bəjlərin jarьm ucuq mylkyny
Daƣьtdьlar jyzlərçə açlarьn bɵlygyny.
Açlardan alaj-alaj əsir alьb getdilər,
Onlarьn qara gɵzly dostunu inçitdilər.
Bir qəfəsə saldьlar onu çanavar kibi,
Atьldьlar ystynə aç qalmьş qurtlar kibi.
Onu carьn şəhərinə, Mosqvaja aldьlar.
Bu gedişdən, bytyn el, bytyn ɵlkə xəbərdar.

---

O, mənim ajlarьmь, gynlərimi oqudu,
Dediginin coqundan, xəbərim də joqdu.
Itirdigim gynləri, unutduƣum anlarь,
Dəftərimdə sьqьnan qarьşьq zamanlarь.
Acьb təkdy ortaja, mənsə sьraja saldьm,
O kecən coçuqluqdan, bir daha ibrət aldьm.
Onun sɵnyk alьnьnьn, hər dərin cizgiləri,
Həjatьmьn silinməz bir xatьrat dəftəri.
O cizgilə sankь bir, patefonun levhəsi,
Hər cizginin icində, bir çyr matəm nəƣməsi.
O nəƣmələr jenə də, aƣladьçь parcalar,
Onlar əski coçuƣun, məhzun marşьnь calar,
Quçaqladьm, oqşadьm, coçuqluƣa sarьldьm
Ondan uzun tarixi bir anda xəbər aldьm.
Bir daha mən jaşadьm, o həzin coçuqluƣu,

Sankь həjatda gɵrdygym, unudulmuş joqluƣu.
Nəzərimdən kecirdi, məzar, məzar dalьnça,
Sankь topraq icində, qajnaşьrdь qarьnça.
Mənim də coçuqluƣum, o dənizdən bir ləpə,
Topraqda syrynyrdy, gɵz jaşь səpə-səpə.
Jenə də acь rəja, çəkildi gɵzdən itdi,
Coçuqluƣum jenə də, məzarьna qajьtdь.
Jenə bir cən byrydy, gɵzlərimin ɵnyny,
Xəjalьmda çanlatdь, gənçligimin gynyny.
Indi gənçlik jeni gənç, jeni iş; jeni həjat
Indi atlar dəmir at, qanatlar dəmir qanat
Gənçlik syr'ət jaradьr, ɵz jeni gedişindən,
Indi əsər qalmamьş, tьsbaƣa jerişindən.
Indi byrynmyş artьq gənçlik qьzьl bir dona
Dɵnmyş qьzьl ɵlkəmiz, qomsomollar jurduna.

